

# Bakı sürət həyəcanı yaşayır





# Bakıda Formula 1 nəsimi əsir

**Bakı növbəti dəfə tarixində möhtəşəm beynəlxalq idman yarışına evsahibliyi edir. Növbəti dəfə bütün dünyanın idman nəbzi Bakıda – Şərq və Qərb koloritinin qovuşduğu bu unikal şəhərlə bir vurur. Qədim tarixə, zəngin mədəniyyətə, milli-mənəvi dəyərlərə, parlaq idman ənənələrinə malik ölkəmizin güclü potensialı dünyaya bir daha nümayiş etdirilir. Sürəti ram edən bolid pilotları da Bakı trekində nümayiş etdirdikləri bacarıqları ilə azarkeşlərinin zövqünü oxşayırlar.**




Ümumiyyətlə, Bakı treki özünün uzunluğu və unikallığı ilə həm bolidləri, həm də pilotları böyük sınağa çəkir. İyunun 4-də də hamı bunun bir daha şahidi oldu. Altı kilometr uzunluğu olan və saat əqrəbi istiqamətinin əksinə hərəkət edən yolda iki qəza baş verdi. Xatırladaq ki, trekin ən geniş yeri 13 metr, ən dar hissəsi isə İçərişəhər ətrafında olan bölmələrində – 7-ci və 8-ci döngələrdə 7,6 metr təşkil edir. Təsadüfi deyil ki, komanda liderləri mübarizənin gərgin keçdiyini və trekin özünəməxsus xüsusiyyətlərə malik olmasının problemlərini yaşadıqlarını açıqlayırlar. Məsələn, "Mercedes Motorsport"un rəhbəri Toto Volff



bildirir ki, Bakıda Monakodakı problemlərin eynisini yaşayırlar.

Qeyd edək ki, "Mercedes" komandası Bakıdakı cümə günü sərbəst yürüşlərində heç də yaxşı nəticə qazanmadı. Sessiyanı 11 və 16-cı yerdə bitirən "Mercedes" komandası xüsusilə vahid dövrədə potensiallarından çox aşağı nəticə göstərdilər. "Mercedes Motorsport"un rəhbəri Toto Volffun sözlərinə görə, gün ərzində eyni problemlə qarşılaşmışlar: "Bolidimiz güclü olsa da, vahid dövrədə tempimiz yoxdur. Cümə günü çox məlumat topladıq, amma Monakodakı problemlər burada da davam edir. Yolun bəzi hissələrində potensialımızı göstərə bilmədik". T.Volff bacardıqları qədər yaxşı nəticə göstərməyə və yüksək xallar toplamağa çalışacaqlarını vurğulayır: "Məncə, sıralanma turu çox çətin keçəcək. Bu, mənə 2015-ci ildəki Sinqapur yarışını xatırladır. Buna baxmayaraq, əlimizdən gələni edəcəyik".

**(ardı 5-ci səhifədə)**

# Bakıda Formula 1 nəsimi əsir



**(əvvəli 1-ci səhifədə)**

"Red Bull" şirkətinin idman direktoru Helmut Marko isə deyir ki, Bakıda cümə günü göstərdikləri nəticədən razıdırlar. Xatırladaq ki, "Red Bull" komandasının sürücüləri Bakıdakı cümə sərbəst yürüşlərində əla nəticə göstərdilər. Nəticələrdən sevincli olduqlarını vurğulayan Helmut Marko əlavə edir ki, həm sıralanma, həm də yarış tempində güclü idilər: "Yarışa qədər bu üstünlüyümüzü qorumalıyıq. Çeko (Serxio Peres Mendoza-red.) ilk dövrədən etibarən sürətli idi. O, şəhər tipli trekləri sevir və Monte Karloda gücünü göstərdi. Hamilton (Luis Hamilton-red.) yarış tempində yaxşı idi. Sadəcə olaraq, sürəti yavaş döngələrdə itirirlər".

Heç kimə sirr deyil ki, Formula 1-də rəqabət səviyyəsi çox yüksəkdir və pelotonun (peloton-fransız sözüdür, idman yarışında yarış iştirakçılarının əsas qrupunun müəyyənləşdirilməsində istifadə edilir) ortasında mübarizə aparan bütün yarışçılar qrupunun başında olmaq üçün bütün amilləri bir araya gətirmək lazımdır. Bakıdakı yolun özünəməxsusluğunu nəzərə alsaq, ötmə yarışlarının sürətli tempdə və gərgin keçdiyini deyə bilərik. Komanda rəhbərlərinin və pilotların da Bakı treki barədə fikirlər bir daha təsdiqləyir ki, qarşıdakı günlərdə də hamını heyranedici mübarizə və nəticələr gözləyir.

Məsələn, "Ferrari" yarışçıları Bakıda keçirilən məşqlərdə yaxşı sürət göstərdilər, yalnız "Red Bull Racing" komandasından olan rəqiblərinə uduzdular. Hər iki komanda nəticələrin gözlənildiyindən də yaxşı olduğunu etiraf edir. Doğrudur ki, dünya mətbuatı "Mercedes" komandasının problemlərindən yazır, ancaq 7 qat dünya çempionu Luis Hamilton cümə gününün komandası üçün yaxşı keçdiyini söyləyir.

"Sözün düzü, bu gün (iyunun 4-ü – red.) yaxşı gün idi", – deyən Luis Hamilton əlavə edir ki, cümə günü yarışlarında komanda lazımi miqdarda dairələrdən keçdi, ciddi səhvlərə yol vermədi.

Bir sözlə, Formula 1 Bakıda yaddaqalan sürət nümayiş etdirir və şübhə yoxdur ki, bu həftə sonu Bakı trekində baş verə biləcək nəticələr və hadisələr sonrakı maraqlı müzakirələrin mövzusu olacaq.

Xatırladaq ki, Formula-1 Qran-prisi yarışları Beynəlxalq Avtomobil Federasiyasının müəyyən etdiyi qaydalar əsasında təşkil edilir. Yarışlar il ərzində müxtəlif ölkələrdə keçirilən mərhələlərdən ibarətdir. Hər bir mərhələ Qran pri adlanır. İlin yekunlarına görə, bütün Qran pri balları



əsasında qalib gəlmiş pilot və komanda müəyyən edilir və mükafatlandırılır. Formula-1 ən böyük tamaşaçı auditoriyasını toplayan yarışlardır. 1950-ci ildə keçirilmiş birinci yarışda "Alfa Romeo" komandası və onun italiyalı pilotu Cüzeppe Farina qalib gəlmişdi. Çempion adını daha çox "Ferrari" komandasının əfsanəvi alman pilotu Mixail Şumaxer qazanmışdır. O, Formula 1 yarışlarının yeddi dəfə çempionu olmuşdur.

**Hazırladı:**
**Səbuhi MƏMMƏDOV,**
**"Xalq qəzeti"**

Xalq qəzeti.- 2021.- 6 iyun.- S.1;5.